# Strateji Tərəfdaşlıq Xartiyasının Azərbaycanın milli təhlükəsizlik maraqlarının təmini baxımından əhəmiyyəti

**"Azərbaycan Hökuməti ilə ABŞ Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya" ölkələrimiz arasında son 34 ildə imzalanmış ən mühüm sənəd hesab edilir. Sənəd 3 mühüm blok: regional bağlantı, iqtisadi sərmayə və təhlükəsizlik üzərində qurulub. Sonuncu istiqamət ortaq maraqların regional və qlobal aspektlərini özündə cəmləməklə yanaşı, yeni mümkün və perspektiv sahələri də istisna etmir.**

*Bu barədə Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun müəllimi, milli təhlükəsizlik və hərbi elmlər üzrə fəlsəfə doktoru Zəfər Nəcəfovun "Azərbaycan Hökuməti ilə Amerika Birləşmiş Ştatları (ABŞ) Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya"nın Azərbaycanın milli təhlükəsizlik maraqlarının təmin edilməsi baxımından əhəmiyyəti" adlı məqaləsində qeyd olunub. AZƏRTAC məqaləni təqdim edir:*

**Azərbaycanla ABŞ arasında imzalanan Xartiyanın ölkəmizin milli təhlükəsizlik maraqları baxımından əhəmiyyətini aşağıdakı kimi xarakterizə etmək mümkündür.**

1. Bu sənəd gələcəkdə regionda irredentizm və setsessiya kimi destruktiv prosesləri tamamilə yasaqlayır, etimad mühitinin formalaşmasına və möhkəmlənməsinə üstünlük verir, regional təhlükəsizliyin bölünməzliyi ideyasını imperativ elan edir.



2. Antiterror sahəsində əməkdaşlığın gücləndirilməsi ölkələrimiz arasında münasibətlərin prioritet sahəsi kimi vurğulanır və davamına ehtiyac duyulur.

3. Kibertəhlükəsizlik və mühüm infrastrukturun mühafizəsi sahəsində bacarıqların inkişafına xüsusi önəm verilir və Azərbaycan bu istiqamətdə dünyanın aparıcı dövləti ilə təcrübə mübadiləsi etmək imkanı qazanır.

4. Azərbaycan minatəmizləmə sahəsində ABŞ-ın maliyyə və texnoloji avadanlığından bəhrələnməyə nail olacaq və bu da mina ilə çirkləndirilmiş işğaldan azad edilmiş ərazilərimizin təmizlənməsi üçün son dərəcə vacibdir.

5. Azərbaycan müasir müdafiə təyinatlı məhsullar əldə etmək, habelə milli müdafiə sənayesinin inkişafında ABŞ-la əməkdaşlıq həyat keçirmək hüququna yiyələnir. Bu son dərəcə vacib məqamdır. Çünki müasir müharibələr Hərbi Sənaye Komplekslərinin qarşıdurması kimi xarakterizə edilir. Müharibənin taleyi ağıllı və avtonom silahlar və beş domendə sinxron əməliyyatlar hesabına aparılır. Bu istiqamətdə süni intellektin rolu da danılmazdır.

6. Trans-Xəzər Nəqliyyat Dəhlizinin (Orta Dəhliz) əsas götürülməsi nəinki regionda biznes, logistika, nəqliyyat-kommunikasiya sistemlərinin həyatqabiliyyətli olmasına imkan verəcək, bu həm də, Türk Dövlətləri Təşkilatının Avrasiyada geostrateji vektora çevrilməsinə imkan yaradacaq. TRIPP (Zəngəzur dəhlizi) isə nəinki Azərbaycan torpaqları arasında birbaşa təması təmin edəcək, həm də Avropadan Asiyayadək (bu coğrafiyada qardaş Türkiyə və Orta Asiyanın türkdilli respublikaları daxil olmaqla) geniş geoiqtisadi və geosiyasi təmas arteriyası yaradacaq. Ermənistan bu geosiyasi "know-how"dan yararlanaq və normallaşma prosesi qarşılıq faydaya və əməkdaşlığa töhfə verəcək.

7. Maraq doğuran məqam isə müdafiə və təhlükəsizlik əməkdaşlığının əhatə dairəsini genişləndirmək niyyəti hesab edilir. Bu ifadəni təfsir çərçivəsi qeyri-məhduddur. Oraya hərbi təhlükəsizlik sahəsində islahatlardan tutmuş, birgə təlimlər, hərbi tədrisdə innovativ metodların tətbiqi, hərbi kadrların mübadiləsi, həmçinin ortaq maraqlara təhlükə, təhdid, çağırış və risk yaradan vəziyyətlərdə hərbi yardımın göstərilməsi də daxil edilə bilər. Bu tərəflərin sonrakı fəaliyyətlərindən və regiondakı geosiyasi vəziyyətin inkişaf dinamikasından asılı ola bilər. Ən sonuncu cümləni fikir xatirinə yazmamışıq. Həmin sənəddə belə bir fikir yer alıb: "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları mövcud Strateji Tərəfdaşlıq çərçivəsinin bir hissəsi kimi, təhlükəsizlik və müdafiə əməkdaşlıq sahəsi üzrə işçi qrupu yarada bilərlər". Bu cümlə, regionda və dünyada baş verəcək biləcək geosiyasi tranformasiyalar kontekstində ölkələrimiz arasında ortaq təhlükəsizlik maraqlarının qorunması sahəsində yeni işçi qrupunun təsis edilməsini istisna etmir.